**Yaşar Əzimağa oğlu Məmmədov**
**i.e.d., dos.**
**AMEA İqtisadiyyat İnstitutu**
**“Monetar və fiskal tənzimləmə problemləri” şöbəsinin müdiri**
**UOT: 336.1; 336.22; JEL: G28; G32; H25; H30.**

# Azərbaycanda həyata keçirilən iqtisadi islahatların ölkəmizin vergi reytinqinin yaxşılaşdırılmasına təsiri

***Xülasə***

*Tədqiqatın məqsədi – ölkəmizdə həyata keçirilən iqtisadi islahatların biznes, əsasən də vergi sahəsindəki beynəlxalq reytinq səviyyəsinə təsirlərini müəyyən etməkdir. Tədqiqatın metodologiyası kimi araşdırmaq üçün ölkəmzidə biznes və vergi sahəsinin inkişafi ilə bağlı qəbul edilmiş strateji və hüquqi-normativ sənədlər, beynəlxalq təşkilatların bu sahədəki hesabat və metodoloji əsasları götürülmüşdür. Tədqiqatın tətbiqi əhəmiyyəti onunla bağlıdır ki, aparılan təhlil və qiymətləndirmələr, irəli srülüən baxışlar ölkəmizdə biznes və vergi mühitinin təkmilləşdirilməsinə xidmət edəcəkdir. Tədqiqatın nəticələri ölkəmizdə biznesin aparılma asanlığının daha da yaxşılaşdırılmasına və vergi sahəsində islhatların dərinləşməsinə xidmət edəcəkdir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – onunla bağlıdır ki, araşdırılan istiqamətdə müasir və beynəlxalq tələblərə uyğun araşdırma aparılmış, vergi mühitinin sağlamlaşdırılması üçün beynəlxalq təcürbənin də təkmilləşdiirlməsi əsasında fikirlər irəli sürülmüşdür.*
***Açar sözlər:*** *iqtisadi islahatlar, beynəlxalq hesabatlar, biznes mühiti, vergi metodologiyası.*

## Problemin qoyluşu

Azərbaycan Respublikasında özəl sektorun inkişafına yönələn diqqətin artırılması, biznes mühiti üçün yaradılan şəraitin davamlı olaraq sağlamlaşdırılması nəzərə çarpmaqdadır. Bütün bu kimi islahatların və tədbirlərin ölkəmizin beynəlxalq reytinq göstəricilərində mövqeyinin yüksəldilməsi də diqqəti cəlb edir. Qeyd edilməlidir ki, artıq son on illik dövr ərzində davamlı və məqsədli şəkildə həyata keçirilən belə islahatlar öz nəticələrini verməkdədir. Bu islahatlarda biznes mühitinin yaxşılaşdırılması ilə paralel həm də vergi mühitinin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmaqdadır. Vergi mühitinin yaxşılaşdırılması və onun biznes fəaliyyətinə təsirlərinin artırılması məqsədilə bu sahədə olan qanunvericilik bazası təkmilləşdirilmiş, vergi inzibatçılığının səmərəliliyinin artırılması ilə bağlı əməli addımlar atılmışdır, bu proses hazıda da davam etməkdədir. “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planında vergi göstəricilərinin yüksəldilməsi istiqamətləri müəyyən edilmişdir [3; 4]. Göstərilməlidir ki, belə istiqamətlilik həm də vergilərin ödənimməsi ilə bağlı tənzimlənmə sisteminin səmərəliliyinin artırılması məqsədinə xidmət etməkdədir. Vergi ödənişləri zamanı mühüm əhəmiyyətliliyi ilə çıxış edən: vaxt, icra və əməl etmə kimi vacib məqamların davamlı olaraq diqqət mərkəzində saxlnması xüsusilə vacib hesab olunmalıdır. Əsasən də “Doing Business” Hesabatında öz əksini tapan bu kimi göstəricilər üzrə Azərbaycanın beynəlxalq reytinq mövqeyinin artırlması istiqamətində əməli tədbirlərin həyata keçirilməsi öz aktuallığı ilə çıxış edir. Qeyd olunan hesabat üzrə tədqiqata başlamazdan əvvəl belə bir fərziyyəni irəli sürmək mümkündür. Azərbaycan Respublikasında vergi islahatlarının davamlı həyata keçirilməsi iki məqamdan vacib hesab olunmalıdır [5; 7]:

- ☞ Birinci, məqamda, bu Doing Business hesabatı və digər beynəlxalq təşkilatların apardığı reytinqində ölkənin mövqeyinə müsbət təsir göstərməklə, daxili və xarici iqtisadi əlaqələrin artmasına, əlverişli investisiya mühitinin gücləndirilməsinə müsbət təsir göstərəcəkdir.
- ☞ İkinci isə, ölkədə qeyri-neft sektorunun inkişafı və bu baxımdan makroiqtisadi göstəricilərin yüksəldilməsi kimi vacib məsələlərin həllinə nail olunacaqdır.

Belə fərziyyəni irəli sürmək üçün kifayət qədər əsas vardır. Belə ki, Dünya Bankının Doing Business (biznesin aparılması) Hesabatı və onunla bağlı müəyyən edilən illik reytinq səviyyələri dünyanın 190 ölkəsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin sadəliyini qiymətləndirir. Bu da biznes-sahibkarlıq mühitinin mövcud imkanlar əsasında sağlamlaşdırılması üçün yeni potensial və resursların üzə çıxarılmasına, onlardan səmərəli istifadəsinə təsir göstərir. Digər tərəfdən, Azərbaycan Respublikasında son on ildə qəbul edilən kifayət qədər dövlət proqramlarında, konseptual sənədlərdə, strateji yol xəritələrində “milli iqtisadiyyatın perioritet inkişafı qeyri-neft sektoru, biznes mühitinin davamlı təkmilləşdirilməsi” müddəası əsas aparıcı mövqeyi ilə nəzərə çarpır [1; 2; 5; 14; 22].

**“Doing Business” hesabatında vergi və vergilərin ödənilməsi metodologiyasına baxış**

Dünya Bankının “Doing Business” hesabatı orta ölçülü bir şirkətin (müəssisənin) müəyyən dövrdə (bir ildə) ödəməli olduğu vergiləri və icbari ödəmələri, habelə vergilərin və ödəmələrin, eləcə də qeydiyyatdan sonrakı prosedurların inzibati yükünü qeydə alır. Bu layihə PwC şirkəti (PricewaterhouseCoopers) ilə birlikdə hazırlanaraq, həyata keçirilməkdədir. Hesabatın vergi ödənişləri indikatorunda nəzərdə tutulan hesablanmış vergilər və ödəmələr öz sistemliliyi ilə əks edilməkdədir (şəkil 1) [6; 23; 29]:

**Şəkil 1.**

**Dünya Bankının “Doing Business” Hesabatında nəzərdə tutulan vergi və digər ödənişlər**

- ⇨ **mənfəət və ya korporativ gəlir vergisi**
- ⇨ **işəgötürən tərəfindən sosial sığorta fonduna edilən ödəmələr və işçi qüvvəsi üçün ödənilən vergilər**
- ⇨ **əmlak vergiləri**
- ⇨ **mülkiyyət hüququnun ötürülməsi üzrə vergilər**
- ⇨ **dividentlər üzrə vergilər**
- ⇨ **kapital artımından vergilər**
- ⇨ **maliyyə əməliyyatları üzrə vergilər**
- ⇨ **tullantıların toplanmasından vergilər**
- ⇨ **nəqliyyat vasitələri və yol vergiləri**
- ⇨ **hər hansı digər kiçik vergilər və ya haqlar**

Mənbə: Şəkil [6; 23; 29] məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Beynəlxalq təcürbədə vergilərin ödənilməsinin yüngüllüyü baxımından aparılan reytinq sıralanması müxtəlif ölkələr üzrə vergilərin ödənilməsi ilə bağlı ən aşağı baldan - ən yüksək bala qədər olan məsafəni özündə ehtiva edir. Bu ballar özü isə, hər bir alt-göstərici üzrə balların ədədi ortası kimi hesablanır. Bu hesablamada yalnız alt-indikatorlardan birinə - ümumi vergi və

ödəmə dərəcəsi alt-indikatoruna kandar qiymət və qeyri-xətti transformasiya tətbiq edilir. Vergilərin ödənilməsi indikatoru həm də bu kimi subindikatorları özündə birləşdirir [6; 23]:

- Ödənişlər (il üzrə sayı)
- Vaxt (il üzrə saatlar)
- Ümumi vergi dərəcəsi (mənfəətə nəzərən %-lə)
- Bəyannamələr təqdim edildikdən sonra prosedurlar indeksi

Vergilərin ödənilməsi indikatorunun müəyyən edilməsində hər alt indikatorun malik olduğu pay 25% səviyyəsində götürülr. "Vergilərin ödənilməsi indikatoru"nun yaranma və tətbiq ideyası Dünya Bankına, onun tərəfindən hazırlanan "Doing Business" Hesabatılığının nümayəndəliyinə və PricewaterhouseCoopers (PWC - Beynəlxalq konsaltinq və audit sahəsində xidmətlər təklif edən beynəlxalq şirkətlər şəbəkəsi) aiddir [6; 23; 29]. Həmin təşkiatlar nəzəri-konseptual və praktiki araşdırmalarının uzunmüddətli nəticələrinə əsaslanaraq vergilərin ödənilmə indikatorunun hesablanmasında müəyyən edilən elementlərin nəzərə alınmasını zəruri hesab edirlər.

Doing Business Hesabatının "vergilərin ödənilməsi" indikatoru və onun hesablanma metodologiyası ölkələr üzrə biznes-vergi mühitinin əlaqəli qiymətləndirilməsinə və bu sahədəki tənzimlənmə mexanizminin müəyyən zaman kəsiyində müqayisə edilməsinə imkan verir. Belə baxışları əsas götürərək, hesabat tərtibçiləri vergi göstəricisinin və onun alt indikatorlarının qiymətləndirilməsinin və müqayisəli təhlilinin ölkələrin iqtisadi inkişafının sürətləndirilməsi baxımından önəmli hesab edirlər. Müəyyən mənada hesab etmək olar ki, ölkələr üzrə biznes-vergi mühitinin eyni müstəvidə və bir-biri ilə əlaqəli şəkildə təhlil edilib, qiymətləndirilməsi [1; 2; 3; 4; 6; 7]:

- ölkələrin iqtisadi inkişafı üçün vacib olan yeni maliyyə-iqtisadi resursların müəyyən olunmasına;
- mövcud resurslardan səmərəli istifadə edilməsinə;
- özəl sektorun inkişafı üçün əlverişli hüquqi və iqtisadi inkişaf mühitinin formalaşdırılmasına;
- biznesin aparılmasının sadələşdirilməsinə;
- ölkələrin iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına əlverişli imkanlar yaradır.

Bütün belə yanaşmalar və bu yönümlü araşdırmaların nəticəsi göstərir ki, hesabatda olan "vergilərin ödənilməsi" indikatoru əlverişli vergi mühitinin yaradılmasına nail olmaqla, reytinqi aparılan ölkələrdə biznesin aparılmasının sadələşdirilməsi və onun səmərəliliyinin yüksəldilməsi kimi mühüm hədəflərə yönəlir. Təcrübə göstərir ki, aparılan tədqiqatlar ölkələrdə biznes, habelə vergi islahatlarının aparılması üçün ciddi siyasi və iqtisadi qərarların çıxarılması və icrası ilə də müşahidə olunur [6; 21].

**Beynəlxalq təcürbədə vergilərin ödənilməsi metodologiyası ilə bağlı aparılan tədqiqatlar**

"Biznesin asanlıq indeksi (Ease of Doing Business Index)" - dünya ölkələri arasında sahibkarlıq fəaliyyətinin sadəliyini müqayisə etmək üçün müəyyən edilmiş illik məlumatlar əsasında Dünya Bankı tərəfindən tərtib edilən indeks hesab edilir [12;19]. Bu indeks professor Oliver Hartın tədqiqatı (elmi məqaləsi) əsasında 2003-cü ildə iqtisadçılar Simeon Dankov və Gerhard Pol tərəfindən hazırlanmışdır. [17; 18]. Hesabat əsasında aparılan qiymətləndirmələr bir sıra məqamları ilə diqqəti cəlb etsə də, əslində o ölkələr üzrə biznes mühitinin tənzimlənməsinin keyfiyyəti, sadəliyi, eləcə də mülkiyyət hüquqlarının qorunmasının vəziyyəti haqqında mühakimələr irəli sürmək üzərində fokslaşır. Hesabatın "vergilərin hesablanması" indeksi də bu baxımdan öz əhəmiyyətliliyi ilə nəzərə alınır. Çünki, vergi mühiti və bu sahədəki vəziyyət "biznesin asanlıq indeksi"nin yaxşılaşdırılmasına biləvasitə təsir etdiyi üçün xüsusi əhəmiyyət kəsb edir. Ümumuilikdə isə, "biznesin asanlıq indeksi"nin ölkələr üzrə müqayisəli qiymətləndirilməsi həm də siyasi-iqtisadi baxımdan da dəyərləndirilir. Belə ki, bu indeksin

qurulmasında başlıca məqsəd – müvafiq dövrlər (illər) üzrə aparılan tədqiqatlar əsasında ölkələrin biznesin tənzimlənməsi səviyyəsinə qiymət verməklə, iqtisadiyyatın inkişafı ilə bağlı təkliflər hazırlamasına təsir etməkdir. "Biznesin asanlıq indeksi" və onun alt bölmələri (göstəriciləri) ilə bağlı aparılan araşdırmalar müxtəlif dövrlərdə həyata keçirilmişdir. Hazıradək, indeks üzrə əvvəlki tədqiqatlar ilə bağlı 800-dən çox elmi araşdırma işləri və məqalələr nəşr edilmişdir [17; 18]. Qeyd olunmalıdır ki, bu tədqiqatlar "biznesin asanlıq indeksi" və onun alt göstəricilərinin mahiyyətinin dəyişməsində ciddi dəyişikliklərə səbəb olmasa da, lakin bu sahədəki problem və nöqsanların üzə çıxarılması baxımından önəmli hesab olunur. Bu tədqiqatlarda bzines mühitinin daha da yaxşılaşdırılması ilə bağlı vergi ödəmələrinin təkmilləşdirilməsi kimi vacib məqamlara da diqqətin yetirilməsi diqqətəlayiq hesab olunur [14; 21; 22; 23].

"Biznesin asanlıq indeksi" və onun alt göstəricilərindən biznes mühitinin inkişafı, vergi ödəmələri sahəsində əsaslı islahatların aparılması baxımından xüsusi əhəmiyyət kəsb edən 3000-dən çox elmi və praktiki tədqiqatların aparılması məqsədləri üçün istifadə olunmuşdur [24]. Aparılan tədqiqatlar göstərmişdir ki, ölkələr üzrə biznes, o cümlədn də vergi tənzimlənmə mühitinin təkmilləşdirilməsi nəticə etibarı ilə iqtisadi inkişafın və ÜDM-in artımına müsbət təsirlər göstərmək iqtidarındadır. Dünyanın iqtisadi və sosial istiqamətli elmi-tədqiqat institut və mərkəzlərində Doing Business hesabatları ilə bağlı 7000-dən çox tədqiqat və digər sənədlər (müxtəlif tədqiqatlar, qiymətləndirmələr, hesablamalar, nəticələr və s.) istifadə olunur. Belə tədqiqat əsərlərinin tərtibçi və araşdırıcı müəllifləri arasında iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Oliver Hart (iqtisadçı) da vardır.

"Doing Busines" Hesabatı Dünya Bankı Qrupunun 190 ölkədə 10 indikator əsasında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin sadəliyini qiymətləndirən illik tədqiqat hesab olunur. Hesabat, vergi indikatoru da daxil olmaqla, kiçik və orta müəssisələrin müvafiq dövrlər ərzində fəaliyyətini tənzimləyən hüquqi-normativ aktların qiymətləndirilməsinə və onların praktik tətbiqi qaydasının vəziyyətinin təhlilinə həsr olunur. Doing Business tədqiqatları yalnız sahibkarlığın inkişafına mane olan problemləri müəyyən etmir, həm də onların yaranma səbəblərini üzə çıxarmaqla, bu sahədə vacib olan islahatların aparılması barədə tövsiyələr irəli sürür [22; 24; 25]. Hesabatın tərtib edilməsi iki mərhələdə həyata keçirilir [22; 24; 25]:

- Əvvəlki hesabat anından sonra baş vermiş hadisələr, dəyişikliklər də daxil olmaqla normativ- hüquqi aktların təhlili;
- Sahibkar və iş adamları arasında aparılan sorğuların nəticələri.

Qeyd olunan hesabat üzrə aparılan tədqiqatda əsas olaraq hüquqi-qanunverici normalar deyil, onların tətbiqi üsulları və səmərəliliyi götürülür. Yəni, biznesin aparılması, o cümlədən də vergi sahəsində müvafiq hüquqi normaların, üsulların tətbiqnin yaratdığı vəziyyət nəticə olaraq vacib məqam kimi dəyərləndirilir [22; 23; 24; 25]. Hesabatın vergi indikatorunun (onun alt indikatorlarunun) hazırlanması – xüsusən sorğu metoduna əsaslanaraq, keçirilir. Belə sorğunların keçirilməsinə hüquqşünaslar, biznes məsləhətçiləri, mühasiblər, ekspeditorlar və məmurlar da daxil olmaqla, 8000-dən çox yerli ekspert cəlb olunur. Hesabatın hazırlanması üzrə tədqiqatlar ölkələrin ən böyük biznes mərkəzilərində və ya şəhərlərdə aparılır. Hesabatı hazırlayanlar belə metodikanı ölkələrin reytinq səviyyəsinin müəyyən olunması baxımından qaneedici hesab edirlər [22; 23; 24; 25]. Mövcud təcrübədən çıxış edərək belə bir mülahizəni irəli sürmək mümkündür: "Doing Business Hesabatı, o cümlədən də onun vergi indikatoru ölkələrin paytaxtlarında, iri mərkəzlərində (meqopolislərində) biznesin aparılma sadəliyini və buna xidmət edən vergi mühitini qimətləndirən mövqedən çıxış edir".

Doing Business Hesabatı kimi, onun "vergi ödənilməsi" indikatorunun (metodologiyasının) bu kimi üstünlükləri mövcuddur [22; 23; 24; 25]:

- Biznesin aparılmasında şəffaflığın təmin olunması: müəyyən olunan metodologiya və hazırlanan qaydalar əsasında toplanan göstəricilər, indikatorlar, onlarla bağlı məlumatlar rəsmi yerləşdirilir (sayt), açıq olub, istifadə imkanları mümkündür;
- Bu tədqiqatlarda müvafiq qanun və müddəaların mətnlərindən istifadə olunduğu üçün hazırlanan materialalrın, istifadə olunan nümunənin uyğunluğunu yoxlamağa ehtiyac qalmır, respondentlərin cavablarının dəqiqliyi yoxlanılır;
- Hesabatın və indikatorlarının hazırlanma dəyəri (xərcləri) yüksək olmur;
- Hesabat üzrə metodologiya müxtəlif iqtisadi modelli ölkələrdə məlumatların toplanmasına və təhlilinə tətbiq olunma imkanı yaradır;
- Standart fərziyyələr məlumat toplamaq üçün yaxşı istifadə olunur, əsasən də müqayisə və meyarlar bütün ölkələrdə tətbiq edilir.

Doing Business Hesabatı kimi, onun "vergi ödənilməsi" indikatorunun (metodologiyasının) da çatışmazlıqları mövcuddur və onların əsaslarına aşağıdakıları aid etmək mümkündür [22; 23; 24; 25]:

- Şirkətlər və investorlar üçün vacib olan biznes və onunla bağlı vergi mühitinin yalnız müəyyən hissəsi ölçülür və bu məhz baxımdan qiymətləndirmələr aparılır;
- Aparılan tədqiqat və hazırlanan reytinqlər ölkələrin iqtisadi inkişafını və maliyyə sisteminin vəziyyətini və strukturunu nəzərə almır;
- Ölkələr üzrə tədqiqat və reytinq qiymətləndirmələri əsas (bir) şəhər üzrə formalaşdırılır (metodologiyada "ölkənin ən böyük biznes mərkəzi" baxışı irəli sürülür);
- Həmçinin, aparılan tədqiqat və reytinqlər ölkələrin müxtəlifliyini, inkişaf səviyyəsini və iqtisadiyyatın klasterliyini nəzərə almır.

Hesabatın "vergi ödənişi" indikatoru (indeksi) ölkələr üzrə vergi mühitinin və göstəriciləri ilə bağlı vəziyyətin qiymətləndirilməsinə yönəlməklə, vergi mühitinin yaxşılaşdırılması və bu sahəki tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər irəli sürməyə imkanlar yaradır. Belə təkliflərin həyata keçirilməsi dövlətlər səviyyəsində zəruri islahatlar aparılmasına yönəlir ki, bu da praktiki olaraq Azərbaycanda müşahidə edilir. Doing Business Hesabatının indikatorlarını, o cümlədən də "vergi ödənişləri" indeksini digər beynəlxalq reytinq təşkilatlarının indekslərindən fərqləndirən başlıca cəhət onun daha çox biznes mühitinin münbitləşdirilməsi kimi məsələri əhatə etməsidir. Belə ki, bu tip və ona bir qədər oxşar hesabatlar və onlar üzrə müəyyən edilən (ölçilən) indekslər daha çox bu kimi istiqamətlərə yönəlməsi ilə diqqəti cəlb edir [22; 23; 24; 25]:

- ölkələrin qlobal inkişafdakı mövqeyinin müəyyən olunması;
- ölkələrdəki siyasi, iqtisadi, ekoloji, sosial inkişaf səviyyələrinin müqayisəli qiymətləndirilməsi;
- ölkələr üzrə həm də inflyasiya və infrastruktur kimi iqtisadi artıma təsir edən bir sıra vacib amillərin dəyərləndirilməsi.

Qeyd olunmalıdır ki, hesabatlarda qiymətləndirmə sahəsi üzrə nəzərdən keçirilən bir çox amillərin subyektiv və qeyri-müəyyən ola bilməsi mümkün sayılır. Çünki onların bir çoxu tədqiqatlar vasitəsilə ölçülür və onların həm də normativ aktlarla müqayisədə tez bir zamanda dəyişdirilməsi çətinləşir. Doing Businesin Hesabatının və həmçinin "vergilərin ölçülməsi" indeksinin hesablanma metodologiyasının illər üzrə istifadəsi mümkün hesab edilir. Bu baxımdan da ölkələrin "vergilərin ölçülməsi" indeksi üzrə reytinq mövqeləri arasında illər üzrə müqayisələrin əsas dəyişiklik amili kimi götürülməsi məqsədəuyğun hesab olunmur. Təcrübə deməyə əsas verir ki, hesabat üzrə müəyyən olunan reytinqlər yalnız formal göstəriciləri nəzərə alsa da, ölkələr üzrə biznesin aparılmasının, o cümlədən də vergi mühitinin qiymətləndirilməsinin əsas institusional vəziyyətini və şərtlərini (özəl sektora inam səviyyəsini, sahibkarlara münasibət, gəlirlilik və s.) nəzərə almır [20].

Doing Busines Hesabatında hər bir ölkə üçün vergi indeksi üzrə hesablamalar bir və ya iki əsas şəhər üzrə aparılır ki, bu da iri ölkələrin regionlararası yekcinsliyinin yüksək olmasını nəzərə almır. Belə problem Azərbaycan Respublikasında da müşahidə olunur. Çünki, ölkəmizin əsas biznes-iqtisadi fəallıq regionu, mərkəzi kimi Bakı şəhəri götürüldüyü üçün, bu indeksin hesablanması da paytaxtın müvafiq göstəriciləri və sorğu araşdırmaları əsasında həyata keçirilir. Sonrdan isə bir sıra şəhərlər (Sumqayıt, Gəncə) üzrə "vergilərin ölçülməsi" indeksinə baxılması (biznesin inkişaf səviyyəsi, təşkili, əhalinin, müəssisə və təsərrüfat subyektlərinin sayının artması və s. ilə bağlı) mümkün hesab edilir. Vergi indeksinin hesablanmasına yanaşma (reytinq qiymətləndirilməsi) vahid ölkə timsalında götürlür ki, bu da həm regionalar (rayonlar), həm də şəhərlər üzrə fərqli nəticələrin müəyyən edilib, qiymətləndirilməsinə imaknlar yaratmır.

MDB ölkələrində də Azərbaycan Respublikasında olduğu kimi vergi indeksi ilə bağlı tədqiqat, hesablama yalnız iri şəhərlər (Bakı kimi) üzrə aparılır. Bu da biznesin aparılmasının, vergi indeksinin vəziyyətinin müqayisəli reytinq səviyyəsinin fərqli region və ərazilər üzrə dəyişikliklərini nəzərə almağa, qiymətləndirməyə imkanlar yaratmır (məsələn: Bakı, Gəncə, Sumqayıt kimi şəhərlərdə istər biznesin aprılma sadəliliyi, istərsə də vergi göstəricilərinin yaxşılaşdırılması üçün imaknlar olduğu halda, əksər rayon, və şəhər tipli qəsəbələrdə bir çox səbəblərdən belə durum qaneedici səviyyədə olmur). Belə çatışmazlıqlar bir çox ölkələrin təcrübəsində də diqqəti cəlb etməkdədir [10; 13].

Dünya Bankının müvafiq qurumu çərçivəsində 2008-ci ildə fəaliyyət göstərən bir qrup ekspert biznesin aparılması (vergi indeksi də daxil aid edilməklə) indeksinin qiymətləndirilməsi ilə bağlı öz tədqiqat nəticələrini nəşr etdirmişdir [16; 26]. Həmin tədqiqatın nəticələri bu kimi vacib baxışları irəli sürməyə əsas verir:

- İndeksin (indekslərin) ölçülmə və ölçülməməsinin imkan və səbəbləri daha aydın ifadə edilməlidir;
- Nəşr olunan hesabatların məlumatlarındakı dəyişikliklər açıqlanmalıdır;
- İndeks (indekslər) üzrə məlumat toplayıcılar və bu sahədə fəaliyyət göstərən tədqiqatçılar daha geniş təcrübəyə malik olmalıdırlar.

Dünya Bankının rəhbərliyi tərəfindən təyin edilmiş müstəqil ekspert qrupu (2013-cü il, iyun) vergi indeksi də daxil olmaqla:

- Doing Business hesabat və indeks göstəricilərinin düzgün şərh edilməməsi;
- Göstəricilər və informasiya bazasının darlığı;
- Məlumatların toplanma metodologiyasının tam olmaması;
- Reytinq qiymətləndirmələri ilə bağlı ekspert baxışlarının olmaması haqqında narahat doğuran nəticələr dərc etmişdir.

Həmçinin, ekspertlər belə qənaətə gəlmişlər ki, hesabat saxlanılsa da, lakin ümumi reytinqlər istisna edilməli, prosesə, yəni reytinq mövqelərinə ayrı-ayrılıqda kollegial baxışın tətbiq edilməsi daha əhəmiyyətli hesab olunmalıdır. Ekspertlərin tövsiyyələri göstərir ki, hesabatda biznesin aparılması və vergilərin ödənilməsi indikatorlarının tətbiqi bu sahələrdə tənzimləmə və hüquqi mühitin düzgün qiymətləndirilməsinin daha aydın və dəqiq üsullarının hazırlanmasına yönəlməsini zəruri edir [11; 28;].

Norveç hökumətinin sifarişi ilə aparılan belə tip araşdırmalar da göstərmişdir ki, Doing Business Hesabatının hesablanma metodologiyasında olan çatışmazlıqlar əksər indekslər (göstəricilər) üzrə reytinqlər üzrə də bir çox ölkələrin malik olduğu mövqeyini tam aydın ifadə etməyə imkan vermir, həm də bir çox hallarda bu mövqelər qeyri-müəyyənliklə müşahidə olunur [15; 27]. Bu isə, bir çox ölkələrdə biznesin aparılması, o cümlədən də vergi indekslərinin yaxşılaşdırılması sahəsində reytinqini yaxşılaşdırmağın əsas işgüzar mühiti dəyişməkdən daha asan ola biləcəyi ilə bağlı fikir və narahatlıqlar yaradır. İndekslər ilə bağlı ölkələr, regionlar üzrə əlaqəli və qaneedici səviyyədə tədqiqatlar aparılmadıqda yerli biznes və

vergi mühitinin yaxşılaşdırılması imkanlarını müəyyən etmək çətin olur. Belə durum da bu sahədə dəqiq və aydın qiymətləndirmələrin həyata keçirilməsini mürəkkəbləşdirir. Nəticə etibarı ilə bütün bu kimi amillər nəzərə alınmadan bir növ ölkələrin "inkişaf imici, nüfuz səviyyəsi" haqında fikirlər formalaşdırılır. Belə fikirlərin aşağı və yuxarı səviyyəsi də əksər ölkələri reytinq göstərcilərinin daha yaxşılaşdırılması ilə bağlı qərar qəbuluna sövq edir. Hesab edirik ki, reytinq səviyyələrinin yaxşılaşdırılması ilə bağlı hökümətlərin hər hansı bir qərar qəbulu aşağıdakı vacib istiqamətlər üzərində qurulmalıdır (şəkil 2):

**Şəkil 2.**

**Ölkə və regionların biznes (vergi) reytinq səviyyələrinin yaxşılaşdırılması ilə bağlı hökümətin qərar qəbulu üzrə nəzərə almalı istiqamətlər**




Mənbə: Şəkil [15; 26; 25; 27] mənbələri əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Doing Busines Hesabatında biznesin aparılması meyarları, o cümlədən də vergi indeksinin ölcülmə prosedurunun tamamlanması üçün tələb olunan vaxtın müəyyən edilmə fərziyyələri belə sadələşdirilmiş mövqedən irəli sürlür: "hər bir prosedur üçün tələb olunan minimum vaxt - 1 gündür". Təcrübə göstərir ki, belə prosedurlar eyni gündə və ya vaxtda həyata keçirilsə də, lakin onlar eyni gündə, vaxtda başlamaya da bilərlər. Belə ki, eyni vaxtda olan prosedurlar ardıcıl günlərdə başlayıb, davam edə bilər. Bu fərziyyələr xüsusilə eyni zamanda bir və ya bir neçə prosedurun başlaya və ya tamamlaya bilən, buna görə də reytinqdəki mövqeyi son nəticədə aşağı düşən ölkələr tərəfindən müəyyən narızlıqlara səbəb olmaqdadır. Dünya Bankı eyni meyarların bütün ölkələrə tətbiq edildiyini və buna görə də qeyri-obyektiv nəticələr verməyəcəyini əsaslandımaqdadır. Həmçinin, Dünya Bankı vaxt göstəricisinin tətbiqində mümkün təhriflər ilə bağlı mümkün riyazi hesablamaları da öz saytında, elmi-tədqiqatlarında ifadə edib [30; 31]. Lakin, bütün bu kimi narazılıqları nəzərə alaraq, Dünya Bankı qismən bir sıra hesablama meyarlarına yenidən baxmış, informasiya sahəsi üzrə prosedurlar üçün yeni fərziyyələr irəli sürülmüşdür: belə ki, informasiya əhatə proseduru bir günün yerinə 0,5 gün götülüməsi mükün hesab edilmişdir. Yəni, vergi indeksinin hesablanma meyyarı prosedurunun 1 gün təşkil etməsi, ümumilikdə qəbul olunmuşdur (1, 2 və s. saat da elə bir gün ərzindəki müddətlər kimi qəbul olunub). Lakin, bu dəyişiklikdə vaxtdan səmərəli istifadə və ya keyfiyyət mövqeyindən yanaşılması vacib hesab edlir [6; 23]. Doing Busines Hesabatı ilə bağlı aparılan

tədqiqatlar yalnız sahibkarlıq fəaliyyətinin aparılması ilə bağlı qanun, qərar və qaydaların öyrənilməsi və kvantifikasiyasına əsaslanır. Hesabat biznes və vergi mühitinin yaxşılaşdırılması baxımından önəmli hesab olunan infrastruktur, inflyasiya, cinayətkarlıq, biznes gəlirləri kimi vacib amil və şərtləri nəzərə almır.

**Azərbaycanın vergi və vergi ödənişləri üzrə reytinqinin dəyişməsi**

Dünya Bankı və onun təşkilatları 1992-ci ildən başlayaraq Azərbaycanla olan əməkdaşlığını genişləndirməkdədir. Azərbaycanda son on ildə qeyr-neft sektorunun inkişafına üstünlük verilməsi, nəticə etibarı ilə ölkəmizdə biznes mühitinin davamlı şəkildə təkmilləşdirilməsinə yönəlməkdədir. Bu mühüm addım Azərbaycanda iqtisadi inkişafın sürətlənməsi ilə yanaşı, həm də biznesin aparılma asanlığının təkmilləşdirilməsi baxımından da önəmli hesab olunur. Bütün bu kimi amillər Azərbaycanın beynəlxalq təşkilatlarla (o cümlədən də Dünya Bankı və onun təmsil etdiyi "Doing Business" reytinq təşkilatı) ilə əməkdaşlığının daha da dərinləşməsinə öz təsirini göstərmişdir [3; 4]. Xüsusilə də vergi göstəriciləri və mühiti sahəsində beynəlxalq reytinq təşkilatları ilə olan əməkdaşlıq da davamlı şəkildə həyata keçirilməkdədir. Azərbaycan "Doing Business 2020" Hesabatında islahatları inkişaf etdirən 20 ölkə sırasında yer almışdır. "Doing Business 2020" Hesabatı göstərir ki, Azərbaycan əsas dörd sahədə islahat aparmışdır [3; 4; 9]:

- əmlakın qeydiyyatı;
- azlıqda olan investorların hüquqlarının müdafiəsi;
- kreditlərin alınması";
- müqavilələrin icrasının təmin edilməsi.

Azərbaycanda həyata keçirilən vergi islahatları son dövrlərdə ölkənin beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilən reytinq sırasındakı mövqeyinə müsbət təsir göstrəmişdir. Vergi islahatlar həm də bu kimi məqamlar baxımından xüsusi əhəmiyyət kəsb edir:

- qanunvericilik bazasının təkmilləşdirilməsi;
- vergi inzibatçılığının səmərəliliyinin artırılması;
- biznes mühitinin sağlamlaşdırılması;
- "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması.

"Doing Business 2019" Hesabatında isə, Azərbaycan vergilərin ödənilməsi indeksi üzrə kifayətqədər müsbət dəyişiklik nümayiş etdirmiş, bu göstərici üzrə 190 ölkə arasında 85.23 bal ilə 28-ci yerdə qərarlaşmışdır. Lakin, 2020-ci ildə Azərbaycanın bu göstərici üzrə reytinq mövqeyində 12 pillə geriləmə halı baş verməklə və ölkənin malik olduğu reytinq səviyyəsi 40 təşkil etmişdir (qrafik 1) [8; 9]. Bütün islahat tədbirlərinin nəticəsində Azərbaycan "Doing Business 2020" Hesabatında islahatları inkişaf etdirən 20 ölkələr sırasında yer almışdır. "Doing Business 2020" Hesabatında Azərbaycan vergilərin ödənilməsi indeksi üzrə MDB və keçmiş postsovet ölkələri arasında yüksək liderliyi ilə seçilmişdir. Belə ki, MDB ölkələri arasında yalnız Gürcüstan (reytinq mövqeyi - 14, 89,2 bal) və Moldovadan (reytinq mövqeyi - 33, 85,2 bal) sonra Azərbaycanın mövqeyi yüksəkliyi ilə seçilir (qrafik1) [7: 9].

Şərqi Avropa ölkələri, əsasən də keçmiş postsovet dövlətləri ilə müqayisədə Azərbaycanın vergilərin ödənilməsi indeksi üzrə göstəriciləri (Bosniya və Herseqovina, Bolqarıstan, Xorvatiya, Çexiya, Macarstan, Kosova, Polşa, Rumınya, Serbiya, Slovakiya Sloveniya) yüksək hesab olunur. Yalnız Pribaltika ölkələrinin bu göstərici üzrə mövqeyi Azərbaycan ilə müqayisədə yüksəkdir [7; 8; 9]. "Doing Business 2019" Hesabatında Azərbaycan dünyanın on ən islahatçı dövləti siyahısına daxil edilməklə, əvvəlki illə müqayisədə 32 pillə irəliləmiş və 190 ölkə arasında 25-ci yerdə qərarlaşmışdır. Bu müsbət inkişaf meyilində vergi ödənişləri üzrə indeksdə baş verən dəyişikliklər də önəmli rol oynamışdır. Lakin, son ildə diqqəti çəkən əsas məsələlərdən biri Azərbaycanın "Doing Business" Hesabatındakı mövqeyində baş verən geriləmə meyili ilə bağlıdır. Çünki, ölkədə həyata keçirilən iqtisadi və vergi islahatlarının əsas

hədəflərindən biri də biznesin aprılmasının yaxşılaşdırılamsı və sahibkarlığın inkişafı ilə bağlıdır. Məhz bu sahədə son ildə baş verən gerilənə halı narahat doğurucu vəziyyət kimi qiymətləndirilə bilər.

**Qrafik 1.**

**Vergilərin ödənilməsi indeksi üzrə ölkələrin reytinq mövqeyi (2020)**




Mənbə: Qrafik [7; 8; 9] məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

"Doing Business 2020" Hesabatında: Azərbaycanda vergi ödənişlərinin sayı 9, ona sərf olunan vaxt 159 saat, cəmi vergilər və onların mənfəətdəki payı 40,7%, bəyannamələr təqdim edildikdən sonrakı proseslərin indeksi 100 bal üzrə 83,8 təşkil edib. Nəticə olaraq, bu indeks üzrə Azərbaycan 100 ballıq qiymətləndirmədə 84 bal qazanaraq 40-cı yerdə qərarlaşmışdır. Lakin, Azərbaycanın 2019-cı ildəki müvafiq reytinq mövqeyi 20-ci yerdə olması ilə diqqəti cəlb edir [7; 8; 9]. Göstərmək lazımdır ki, "Doing Business 2020" Hesabatında vergi ödənişləri indeksi üzrə Azərbaycanın reytiq mövqeyinin pisləşməsinə təsir edən başlıca səbəblər aşağıdakılar ilə bağlıdır:

- ƏDV ödənişlərinin əvəzlənməsinə və geri alınmasına sərf edilən vaxtın uzanması;
- Sosial sığorta ödənişlərinin mənfəətdə xüsusi çəkisinin yüksək olması.

Vergilərin ödənilməsinin ödənişlər (ödənişlərin sayı) alt indeksi üzrə son on ildə Azərbaycanda nəzərə çarpacaq irəliləyişlər müşahidə edilmişdir. Vergi ödənilməsinin vergi ödənişləri alt indeksi müvafiq dövr ərzində (əsasən də il) ərzində ödənilmiş vergi və ödəmələrin ümumi sayını, ödəniş metodunu, ödəniş tezliyini, bəyannamə təqdimetmə tezliyini və standartlaşdırılmış müəssisə və ya şirkətin konkret vəziyyətinin təhlilinə cəlb edilmiş təşkilatların sayını əks etdirir. Buraya satış vergisi, ƏDV və işçilərə görə təyin olunan əmək vergiləri kimi şirkət tərəfindən tutulan vergilər daxildir [6; 9]. 2020-ci ildə ölkədə vergi ödənişlərinin sayı 9 təşkil etmişdir. Bu göstərici 2020-ci ildə 2006-cı illə müqayisədə - 4,1 dəfə, 2014-cü illə müqayisədə isə 2 dəfə azalması ilə müşahidə edilmişdir. Azərbaycanda 2019-cı ildə ödənişlər alt indeksinin sayı 6 təşkil etdiyi halda, 2020-ci ildə bu göstərici artmaqla 9-a çatmışdır. Buna səbəb ölkədə aparılan vergi islahatları və bu islahatlar nəticəsində vergilərin elektron ödəniş sisteminin tətbiqi ilə bağlıdır. Hazırda bu göstəricinin sayında aşağıdakı ödəmələr iştirak edir [7; 8; 9]:

- Mənfəət vergisi üzrə (il ərzində 4 cari, bir illik və bu vergi üzrə bəyannamə təqdimatından sonrakı razılaşdırma və düzəlişlər) ödənişlər;

- Əməyə görə ödəmələr və ya fiziki şəxslər üzrə gəlir vergisi üzrə (ildə bir dəfə) ödəmələr;
- Sosial yönümlü (ildə bir dəfə) ödəmələr;
- ƏDV üzrə (ƏDV və bu vergi üzrə bəyannamə təqdimatından sonrakı razılaşdırma, dəqiqləşdirmə) ödənişlər.

"Doing Business 2020" Hesabatı üzrə hazırlanan reytinqdə Azərbaycanın il ərzində vergi ödəmələrinin sayı alt indeksinə görə mövqeyi bir sıra MDB ölkələri ilə müqayisədə yüksək deyildir. Belə ki, bu indeksə üzrə mövqeyə görə MDB-də Gürcüstan (5), Ukrayna (5), Belarus (7) və Tacikstan (7) Azərbaycandan üstün mövqeyə malikdir. Bu indeks üzrə Şərqi Avropa ölkələri arasında yalnız Çexiya (8), Slovakiya (8), Estoniya (8), Latviya (7) və Polşa (7) Azərbaycandan yüksək mövqeyi ilə diqqəti cəlb edirlər [7; 8; 9]. Ümumilikdə isə, vergi ödəmələrinin sayı alt indeksinə görə Azərbaycanın Avropa ölkələri arasında reytinqi orta mövqeyi baxımından qiymətləndirilir.

Vergilərin ödənilməsinin vaxt alt indeksi üzrə son on ildə ölkədə irəliləyişlər müşahidə edilmişdir. Belə ki, 2006-cı illə müqayisədə 2020-ci ildə vergilərin ödənilməsinə sərf olunan vaxtın həcmi 4,6 dəfə, 2010-cı illə müqayisədə isə 2,4 dəfə azalmışdır [7; 8; 9]. Bu amil Azərbaycanın müvafiq alt indeks üzrə ölkələr arasında reytinq mövqeyinin yaxşılaşmasına öz müsbət təsirini göstərmişdir. Bu amil göstərir ki, son dövrlərdə vaxt alt indeksinində baş verən deyişiklik nəticəsində Azərbaycanda 3 əsas vergi və ödəmə növünün (korporativ gəlir vergisi, ƏDV və işçi qüvvəsi üçün vergilər, o cümlədən əmək haqqından tutulan vergilər və sosial sığorta fonduna edilən ödəmələr) hazırlanması, bəyan edilməsi və ödənilməsi üçün nəzərdə tutulan vaxtın müddəti azalmışdır. Mövcud dəyişiklik daha çox ölkədə vergi islahatlarının dərinləşməsi və vergilərin elektorn ödəmə sistemi ilə (online.az) geniş həyata keçirilməsi ilə bağlıdır [7; 8; 9].

Vergi ödənilməsinə sərf olunan vaxt alt indeksi üzrə Azərbaycanın MDB ölkələri arasında malik olduğu reytinq mövqeyi yüksəkdir (159 saat). Bu göstərici yalnız Rusiyada (159 saat) Azərbaycan ilə eynilik təşkil edir (qrafik 2). Digər MDB ölkələrində isə vergi ödəmələrinə sərf olunan vaxt müddəti yüksək olaraq qalmaqdadır. Şərqi Avropa ölkələri arasında yalnız Pribaltika ölkələri Litva (49 saat), Estoniya (50 saat) və Kosova (154 saat) bu göstərici üzrə Azərbaycandan irəlidədir (cədvəl 4). Qeyd etmək lazımdır ki, vaxt alt indeksi üzrə Azərbaycanın reytinq mövqeyi bir sıra Qərbi Avropa ölkələri ilə (İtaliya, Yunanıstan, Portuqaliya) müqayisədə yüksəkdir [7; 8; 9].

Vergilərin ödənilməsinin ümumi vergi dərəcəsi alt indeksi ölkələr üzrə ümumi vergi və ödəmələrin mənfəətdəki faizlə - payını əks etdirir. Həmin subindeksi baxımından ölkəmizin beynəlxalq reytinqində irəliləyişlər baş vermişdir. Son on illik dövrü götürdükdə ölkəmizin bu vergi subindeksi üzrə reytinq səviyyəsi yaxşılaşmışdır (46,4%-dən 40,7%-ə enməklə) [7; 8; 9]. Digər vergi subindeksi olan - ümumi vergi dərəcəsi alt indeksinin mənfəət vergisi (mənfəətin %-i) göstəricisi son beş ildə demək olar ki, ciddi dəyişilməmişdir. Belə ki, bu göstəricinin səviyyəsi son beş ildə yalnız – 0,2% azalması ilə müşahidə olunmuşdur. Ölkəmizdə son beş ildə ümumi vergi dərəcəsinin alt indeksi olan - əməyə görə vergi və sosial sığorta ayırmalar üzrə göstəricidə də ciddi dəyişiklik nəzərə çarpmamışdır. Qeyd etmək lazımdır ki, bu vergi subindeks göstəricinin səviyyəsi son beş ildə 0,6% artması ilə diqqəti cəlb etmişdir [7; 8; 9]. Məhz belə artım da 2020-ci ildə ölkəmizin vergi ödənişləri üzrə beynəlxalq reytinq səviyyəsinin pisləşməsinə öz təsirini göstərmişdir.

**Qrafik 2.**

**Vergilərin ödənilməsinin vaxt alt indeksi üzrə ölkələrin müqayisəli mövqeyi (2020, il üzrə saat)**




Mənbə: Qrafik [7; 8; 9] məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

## Nəticə

Aparılan tədqiqat və araşdırmalar göstərir ki, ölkələrin biznes və vergi sahəsindəki reytinqini müəyyən edən metodologiyaların təkmilləşdirilməsinə ehtiyac artmaqdadır. Xüsusilə bu sahələrdə hesabatların hazırlanmasında ölkələrdəki iqtisadi inkişafın, sabitliyin qiymətləndirilməsinə diqqətin artırılması zəruri hesab olunmalıdır. Hökümətlərin biznes və vergi mühitinin sağlamlaşdırılması və bu sahələr üzrə beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılmasına baxış dəyişməlidir. Belə ki, biznes və vergi islahatların aparılması yalnız beynəlxalq reytinq səviyyəsinin artırılması əsasında qurulmamalıdır. Burada hər bir ölkənin biznes və vergi sisteminin sosial-iqtisadi inkişafa təsirləri nəzərə alınmalı, özəl sektorun inkişafı üçün davamlı münbit mühitin yaradılması vacib hesab olunmalıdır. Ölkələr üzrə biznes mühiti və vergi islahatları üzrə beynəlxalq reytinq göstəriciləri hazırlanarkən burada digər zəruri göstəricilərin də (iqtisadi inkişaf, maliyyə sabitliliyi, ayrı-ayrı region və ərazilər üzrə biznes və vergi mühiti və s.) dəyərləndirilməsi məqsədəuyğun olar. Həmçinin, beynəlxalq reytinqlərləri əks etdirən hesabatlar hazırlanarkən, ölkələrin mövqeyini müəyyən edəcək göstəricilər üzrə ekspert şərhlərinin verilməsi, bu sahədə olan problemlərin aradan qaldırılması üzrə tövsiyyəlrin də əks etdirilməsi vacib hesab olunmalıdır. Ölkələrin biznes və vergi sahəsindəki beynəlxalq reytinqinin yaxşılaşdırılması məqsədilə hökümətlərin bu istiqamətlər üzrə hüquqi, iqtisadi və maliyyə tənzimlənmə mexanizmlərinin birgə - əlaqəli şəkildə təkmilləşdirilməsi ilə bağlı islahatların aparılmasına üstünlük verməsi önəmli olar.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016. https://static.president.az/pdf/38542.pdf
2. "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi". Bakı, 2016. https://static.president.az/pdf/38542.pdf
3. "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında"

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair. Tədbirlər Planı. https://e-qanun.az/framework/35658.
4. Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması üçün yaradılmış Komissiyanın fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2016. https://e-qanun.az/framework/39902.
5. Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası. https://azranking.az/az/ratings/hesabati-hazirlayan-teskilat-barede-melumat.
6. Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası. Vergilərin ödənilməsi metodologiyası. https://azranking.az/az/ratings/vergilerin-odenilmesi.
7. Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası. “Doing Business” Hesabatı. https://azranking.az/az/ratings/dinamika-72.
8. Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası. “Doing Business” Hesabatı. https://azranking.az/az/benchmarking.
9. Azərbaycanda biznes mühiti – 2020: reallıqlar və perspektivlər. Monoqrafiya. Bakı, “Elm və Bilik” P.Z. – 2021, 120 s. http://economics.com.az/images/fotos/Kitablar/2021/MonoqrafiyaBiznes.pdf
10. Баринова В., Земцов С., Царева Ю. Предпринимательство и институты: есть ли связь на региональном уровне в России? //Вопросы экономики. 2018. № 6. С. 92-116. - doi:10.32609/0042-8736-2018-6-92-116.
11. Манипуляционный скандал 2018 года. https://www.wikiwand.com/ru/Рейтинг_лёгкости_ведения_бизнеса#/Манипуляционный_скандал_2018_года
12. Рейтинг лёгкости ведения бизнеса. org/wiki/Рейтинг_лёгкости_ведения_бизнеса
13. A.Baranov, E.Malkov, L.Polishchuk, M.Rochlitz, G.Syunyaev. Measuring Institutions in russian regions: Methodology, Sources of data, Analysis // Voprosy Ekonomiki. 2015-02-20. Вып. 2. С. 69–103. ISSN 0042-8736. doi:10.32609/0042-8736-2015-2-69-103.
14. Doing Business 2020. Business Regulation in 190 Economies. Author: Doing Business Published: October 24, 2019. Comparing. https://openknowledge.worldbank.org/bitstream/handle/10986/32436/9781464814402.pdf.
15. DOING BUSINESS 2019. The World Bank. Overviewhttps://www.doingbusiness.org/content/dam/doingBusiness/media/Annual-Reports/English/DB19-Chapters/DB19-Overview.pdf
16. Doing Business – Doing Business: An Independent Evaluation. https://ieg.worldbankgroup.org/sites/default/files/Data/reports/db_evaluation.pdf.
17. DB-Methodology-Courts.pdf - Doing Business. Simeon Djankov Rafael La Porta Florencio Lopez-de-Silanes Andrei Shleifer. file:///C:/Users/User/Downloads/DB-Methodology-Courts.pdf.
18. Djankov, Simeon, Rafael La Porta, Florencio Lopez-de-Silanes, and Andrei Shleifer, “The Regulation of Entry,” Quarterly Journal of Economics, CXVII (2002), 1-37.
19. Haidar, Jamal Ibrahim, The Impact of Business Regulatory Reforms on Economic Growth (May 25, 2012). Journal of the Japanese and International Economies, Vol. 26 (3), pp. 285-307, Available at SSRN: https://ssrn.com/abstract=2066558
20. Handbook of Entrepreneurship Research /Zoltan J.Acs, David B.Audretsch. — 2010. doi:10.1007/978-1-4419-1191-9; https://link.springer.com/book/10.1007/978-1-4419-1191-9
21. The World Bank. Doing Business. Business Reforms. https://archive.doingbusiness.org/en/reforms.
22. The World Bank. Doing Business. Methodology. https://archive.doingbusiness.org/en/methodology.
23. The World Bank. Doing Business. Paying Taxes methodology. https://archive.doingbusiness.org/en/methodology/paying-taxes

24. The World Bank. Doing Business and Related Research. https://archive.doingbusiness.org/en/research
25. The World Bank. Doing Business. 2004-2020. https://archive.doingbusiness.org/en/doingbusiness.
26. The World Bank. Doing Business: An Independent Evaluation Taking the Measure of the World Bank IFC Doing Business Indicators Doing Business: An Independent Evaluation Taking the Measure of the World BankIFC Doing Business Indicators. Doing Business – Doing Business: An Independent Evaluation. https://ieg.worldbankgroup.org/sites/default/files/Data/reports/db_evaluation.pdf
27. The World Bank. DOING BUSINESS 2019. Training for Reform. https://www.doingbusiness.org/content/dam/doingBusiness/media/Annual-Reports/English/DB2019-report_print-version.pdf;
28. Los Angeles SEO Services. https://www.icea-group.com/los-angeles-seo/
29. PricewaterhouseCoopers (PwC). https://www.pwc.com/gx/en/about.html.
30. Sieds, 2014. "Complete Volume LXVIII n.1 2014," RIEDS - Rivista Italiana di Economia, Demografia e Statistica - The Italian Journal of Economic, Demographic and Statistical Studies, SIEDS Societa' Italiana di Economia Demografia e Statistica, vol. 68(1), pages 1-244, January-M. deas.repec.org/a/ite/iteeco/140100.html.
31. SIEDS Societa' Italiana di Economia Demografia e Statistica RIEDS - Rivista Italiana di Economia, Demografia e Statistica - The Italian Journal of Economic, Demographic and Statistical Studies. https://ideas.repec.org/s/ite/iteeco2.html; Rivista italiana di economia demografia e statistica, 2014, Volume LXVIII, Issue 1, ideas.repec.org

***Яшар Азимага оглу Мамедов***
***д.э.н., доц.***
***Институт Экономики НАНА***
***заведующий отдела "Проблемы монетарного и фискального регулирования"***

***Влияние экономических реформ проводимых в Азербайджане на улучшение налогового рейтинга страны***

***Резюме***

*Цель исследования - определить влияние экономических реформ проводимых в стране, на уровень международного рейтинга в сфере бизнеса, в основном налогового. В качестве методологии исследования были взяты стратегические и нормативно-правовые документы, отчеты и методологические основы международных организаций в данной сфере. Прикладная значимость исследования связана с тем, что проведенный анализ и оценки, предложенные взгляды послужат улучшению деловой и налоговой среды в стране. Результаты исследования послужат дальнейшему улучшению леггости ведения бизнеса в стране и углублению реформ в сфере налогообложения. Оригинальность и научная новизна исследования связана с тем, что исследования проводились в соответствии с современными и международными требованиями в исследуемом направлении, а идеи выдвигались на основе усовершенствования мирового опыта по улучшению налоговой среды.*

***Ключевые слова:*** *экономические реформы, международные отчеты, деловая среда, налоговая методология.*

***Yashar Azimaga Mammadov***
***d.e.s. associate prof.***
***Institute of Economics of ANAS***
***Head of "Monetary and fiscal regulation problems" department***

***The impact of the economic reforms implemented in Azerbaijan on the improvement of the tax rating of our country***

***Summary***

*The purpose of the study is to determine the effects of the economic reforms implemented in our country on the level of international rating in the field of business, mainly tax. Strategic and legal-normative documents, reports and methodological bases of international organizations in this field were taken for research as a research methodology. The applied importance of the research is related to the fact that the conducted analysis and evaluations, the proposed views will serve to improve the business and tax environment in our country. The results of the research will serve to further improve the ease of doing business in our country and deepen reforms in the field of taxation. The originality and scientific innovation of the research is due to the fact that research was conducted in accordance with modern and international requirements in the investigated direction, and ideas were put forward based on the improvement of international experience to improve the tax environment.*

***Keywords***: *economic reforms, international reports, business environment, tax methodology.*

***Elmi redaktor: i.f.d., dos. A.Muradov***
***Daxil olub: 12.09.2022.***
***Çapa qəbul olunub: 19.09.2022.***